**2024-2025-Cİ TƏDRİS İLİNİN YAZ SEMESTRİNDƏ ƏCNƏBİ VƏTƏNDAŞLARIN HAZIRLIQ KURSLARINA QƏBULU**

**Müraciət proseduru:**

Əcnəbilərin ali təhsil müəssisələrinə qəbulu https://portal.edu.az/ vasitəsilə həyata keçirilir.

**Portalda qeydiyyatdan keçmək üçün tələb olunan sənədlər**:

1. Pasportun skanı;
2. Ümumi sağlamlıq arayışı, o cümlədən QİÇS, Hepatit B və C viruslarının daşıyıcısı olmaması haqqında arayış;
3. Əvvəlki təhsil haqqında sənədin və onun əlavəsinin (akademik transkript) leqallaşdırılmış (apostil edilmiş) variantı;
4. Tədris dili barədə sertifikat (mövcud olduğu halda);

➢ İngilis dili biliyi sertifikatı (mövcud olduğu halda) (bakalavriat səviyyəsi üzrə IELTS minimum 5.0 və TOEFL 40, digər təhsil səviyyələri üzrə IELTS minimum 5.5 və TOEFL 50 bal). Rəsmi dili ingilis dili olan ölkələrin vətəndaşları bu tələbdən azaddırlar.

**Müraciətə baxılması:**

Portal vasitəsilə qəbul üçün müraciət etdikdən sonra universitetin müvafiq şöbəsi tərəfindən əcnəbi vətəndaşın müraciətinə baxılır və qəbul meyarlarına uyğun gəldiyi halda, əlavə sənədlərin təqdim edilməsi, müsahibədə iştirak etmək və s. şərtləri yerinə yetirməli olduğunu əks etdirən Şərti Qəbul Məktubu göndərilir. Qəbul Komissiyası üzvlərinin iştirakı ilə müsahibə namizədin seçdiyi ixtisas üzrə dil biliyi səviyyəsini müəyyən etmək üçün keçirilir. Dil biliyi tələblərinə cavab verməyən namizədlər universitetin təklif etdiyi hazırlıq kurslarına müraciət edə bilərlər.

Əcnəbinin Azərbaycan Texniki Universitetinə müraciəti qəbul edildikdən sonra, rəsmi Qəbul məktubu göndərilir. Qəbul Məktubunu aldıqdan sonra əcnəbi vətəndaş **elm və ya təhsil vizası** üçün müraciət edə bilər.

Qəbul prosesinin başa çatdırılması üçün Azərbaycana gəldikdən sonra 3 gün ərzində əcnəbi tələbələr aşağıdakı sənədlərin əslini Azərbaycan Texniki Universitetinin Beynəlxalq əlaqələr şöbəsinə təqdim etməlidirlər:

1. Əvvəlki təhsil haqqında sənədin və əlavəsinin (akademik transkript) leqallaşdırılmış (apostil edilmiş) variantı;
2. Əvvəlki təhsil haqqında sənəd və onun əlavəsinin (akademik transkript) azərbaycan dilinə tərcümə edilmiş və notarial qaydada təsdiq edilmiş variantı;

3. Pasportun surəti;
4. Ümumi sağlamlıq arayışı, o cümlədən QİÇS, Hepatit B və C viruslarının daşıyıcısı olmaması haqqında arayış. Sağlamlıq haqqında arayışı ərizəçinin öz ölkəsində (ingilis dilində) və ya Azərbaycanın yerli tibb mərkəzlərindən əldə etmək olar;
5. Tədris dili barədə sertifikat (mövcud olduğu halda);

➢ İngilis dili biliyi sertifikatı (mövcud olduğu halda) (bakalavriat səviyyəsi üzrə IELTS minimum 5.0 və TOEFL 40, digər təhsil səviyyələri üzrə IELTS minimum 5.5 və TOEFL 50 bal). Rəsmi dili ingilis dili olan ölkələrin vətəndaşları bu tələbdən azaddırlar.

6. 3x4 sm ölçüdə 10 ədəd fotoşəkil (son 6 ayda çəkilmiş);
7. Elm və ya təhsil vizasının surəti;
8. Tələbənin müvəqqəti qeydiyyatda olduğu yaşayış yeri sənədinin surəti.

**Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı:**

Azərbaycan Respublikasında 15 gündən artıq müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduqları yer üzrə qeydiyyatdan keçməlidirlər.

Bunun üçün əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qaldığı mənzilin və ya digər yaşayış yerinin sahibi öz ərizəsini və əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin pasportunun surətini təqdim etməlidir. Əcnəbi tələbə ölkəyə daxil olduğu gündən 15 gün müddətində rəsmi internet saytı, elektron poçt vasitəsilə və ya şəxsən regional miqrasiya şöbələrinə və ya "ASAN xidmət" mərkəzlərinə müraciət etməlidir.

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduğu yeri dəyişdikdə, 5 gün müddətində yeni olduğu yer üzrə yenidən qeydiyyatdan keçməlidir. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs qeydiyyata alındığı mənzilin (yaşayış yerinin) sahibinə məxsus başqa bir mənzildə müvəqqəti qaldıqda, onun yenidən qeydiyyatı tələb olunmur.

**Hazırlıq kursları:**

Hazırlıq kursları, tələbələrə ali təhsil səviyyələrində müvəffəqiyyət qazanmaq üçün vacib olan dil bacarıqları ilə təmin etməyi hədəfləyir. Kursun müddəti müraciətçinin dil bacarığından asılı olaraq 6 aydan 1 ilədək dəyişir və intensiv dil hazırlığı təmin edir. Kurs final imtahanı ilə başa çatır və imtahandan uğurla keçən tələbələr Hazırlıq kursunu bitirmə haqqında Şəhadətnamə əldə edirlər və ali təhsil səviyyələrində təhsilini davam etdirmək hüququ qazanırlar.

**Təhsil haqqı**: 950 ABŞ dolları.

## 2024-2025-Cİ TƏDRİS İLİ ÜÇÜN BAKALAVRİAT İXTİSASLARI

- Nəqliyyat mühəndisliyi (azərbaycan, rus)
- Nəqliyyatda servis (nəqliyyat növləri üzrə) (azərbaycan)
- Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi (azərbaycan, rus)
- Elektrik və elektronika mühəndisliyi (azərbaycan, rus)
- Energetika mühəndisliyi (azərbaycan, rus)
- Mühəndis fizikası (azərbaycan)
- Mexatronika və robototexnika mühəndisliyi (azərbaycan)
- Proseslərin avtomatlaşdırılması mühəndisliyi (azərbaycan, rus)
- Ekologiya mühəndisliyi (azərbaycan)
- Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi (azərbaycan)
- Mədən mühəndisliyi (azərbaycan)
- Kimya mühəndisliyi (azərbaycan)
- Metallurgiya mühəndisliyi (azərbaycan, rus)
- Materiallar mühəndisliyi (azərbaycan)
- Cihaz mühəndisliyi (azərbaycan)
- Maşın mühəndisliyi (azərbaycan, rus)
- Mexanika mühəndisliyi (azərbaycan)
- Qida mühəndisliyi (azərbaycan)
- Sənaye mühəndisliyi (azərbaycan)
- Kompüter elmləri (azərbaycan, rus, ingilis)
- Kompüter mühəndisliyi (azərbaycan, rus, ingilis)
- İnformasiya təhlükəsizliyi (azərbaycan, rus, ingilis)
- Radiotexnika və telekommunikasiya mühəndisliyi (azərbaycan, rus, ingilis)
- İnformasiya texnologiyaları (azərbaycan, rus, ingilis)
- Beynəlxalq ticarət və loqistika (azərbaycan)
- Biznesin idarə edilməsi (azərbaycan, ingilis)
- İqtisadiyyat (azərbaycan, ingilis)
- Maliyyə (azərbaycan, ingilis)
- Marketinq (azərbaycan)
- Menecment (azərbaycan, ingilis)
- Statistika (azərbaycan)

## *MAGİSTRATURA İXTİSASLARI*

- Dünya iqtisadiyyatı (azərbaycan)
- İqtisadiyyat (azərbaycan, ingilis)
- Sənayenin təşkili və idarə edilməsi (azərbaycan, rus, ingilis)
- Menecment (sahələr üzrə) (azərbaycan, rus, ingilis)
- Biznesin idarə edilməsi (azərbaycan, ingilis)
- Kompüter elmləri (azərbaycan, rus, ingilis)
- Materialşünaslıq mühəndisliyi (azərbaycan)
- Dağ-mədən mühəndisliyi (azərbaycan)
- Elektroenergetika mühəndisliyi (azərbaycan, rus, ingilis)
- İstilik energetikası mühəndisliyi (azərbaycan, ingilis)
- Enerji maşınqayırması mühəndisliyi (azərbaycan)
- Metallurgiya mühəndisliyi (azərbaycan)
- Maşın mühəndisliyi (azərbaycan, rus)
- Dəmir yolu nəqliyyatı və təsərrüfatı muhəndisliyi (azərbaycan, ingilis)
- Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi (azərbaycan, ingilis)
- Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi (azərbaycan, rus, ingilis)
- Cihazqayırma mühəndisliyi (azərbaycan)
- Texnoloji maşın və avadanlıqlar mühəndisliyi (azərbaycan)
- Elektrik mühəndisliyi (azərbaycan, ingilis)
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi (azərbaycan, rus, ingilis)
- Proseslərin avtomatlaşdırılması mühəndisliyi (azərbaycan, ingilis)
- Mexatronika və robototexnika mühəndisliyi (azərbaycan, ingilis)
- Mexanika mühəndisliyi (azərbaycan, rus)
- Kompüter mühəndisliyi (azərbaycan, rus, ingilis)
- İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi (azərbaycan, rus, ingilis)
- Kimya mühəndisliyi (azərbaycan)
- Təkrar emal və bərpa texnologiyaları mühəndisliyi (azərbaycan)
- Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi (azərbaycan)
- Biotibbi texnika mühəndisliyi (azərbaycan, ingilis)
- Ekologiya mühəndisliyi (azərbaycan, ingilis)
- Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi (azərbaycan)
- Nəqliyyat servisi (nəqliyyat növləri üzrə) (azərbaycan)

## MBA (MASTER OF BUSINESS ADMINISTRATION) İXTİSASLARI

**Biznesin idarə edilməsi**

- Biznesin təşkili və idarə edilməsi (Mühəndislik və idarəetmə riskləri üzrə) (azərbaycan, ingilis)
- Biznesin təşkili və idarə edilməsi (Risklərin idarə edilməsi üzrə) (azərbaycan, ingilis)
- Biznesin təşkili və idarə edilməsi (Marketinq üzrə) (azərbaycan, ingilis)
- Biznesin təşkili və idarə edilməsi (Menecment üzrə) (azərbaycan, ingilis)
- Biznesin təşkili və idarə edilməsi (Layihələrin idarə olunması üzrə) (azərbaycan, ingilis)
- Biznesin təşkili və idarə edilməsi (Kiber təhlükəsizlik üzrə) (azərbaycan, ingilis)
- Biznesin təşkili və idarə edilməsi (Beynəlxalq biznes üzrə) (azərbaycan, ingilis)
- Biznesin təşkili və idarə edilməsi (Biznes və data analitikası üzrə) (azərbaycan, ingilis)
- Biznesin təşkili və idarə edilməsi (Beynəlxalq logistika və təchizat zəncirinin idarə edilməsi üzrə) (azərbaycan, ingilis)
- Biznesin təşkili və idarə edilməsi (Səhiyyənin idarə edilməsi) (azərbaycan, ingilis)
- Biznesin təşkili və idarə edilməsi (Enerji menecmenti üzrə) (azərbaycan, ingilis)
- Biznesin təşkili və idarə edilməsi (İnsan resurlarının idarə edilməsi üzrə) (azərbaycan, ingilis)

**Müraciət üçün son tarix:**

Hazırlıq kursları: 10.02.2025

**Əlaqə nömrəsi**: (+994) 99 799 41 81 (Whatsapp)

**E-poçt:** admissions@aztu.edu.az

**Ünvan:** H.Cavid prospekti 25, Bakı, Azərbaycan AZ 1073 Azərbaycan Texniki Universiteti